**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

**Ə M R**

№ 70

**Bakı şəhəri** «02» sentyabr 2015-ci il

**"Klinik Protokolların yenidən tərtib edilməsi barədə"**

Müasir tibbi texnologiyaların, profilaktika, diaqnostika, müalicə və reabilitasiya metodlarının inkişafını nəzərə alaraq 2008-ci ildən tərtib edilmiş klinik protokolların yenidən baxılmasına zərurət yaranmışdır .

Qeyd olunanları nəzərə alaraq,

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Azərbaycan Respublikasında klinik protokolların tərtib edilmə Qaydaları barədə" 24 noyabr 2008-ci il tarixli 160 nömrəli əmri qüvvədən düşmüş hesab edilsin.

2. Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova tapşırılsın:

2.1. yeni tərtib olunacaq klinik protokolların siyahısı prioritet mövzular üzrə hazırlansın və təsdiqə təqdim edilsin;

2.2. Səhiyyə Nazirliyinin Elmi-tədqiqat İnstitutları və Mərkəzləri, Azərbaycan Tibb Universitetinin və Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedraları, Səhiyyə Nazirliyinin baş mütəxəssisləri cəlb edilməklə klinik protokolların yenidən baxılması və tərtibi təşkil edilsin;

2.3. klinik protokollar qəbul olunmuş normativ sənədlər, müasir diaqnostika və müalicə metodları nəzərə alınaraq tərtib edilsin.

3. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**